**Qaradağda fəaliyyət göstərən topdan satış ticarət obyektində keçirilən plandankənar yoxlamaya dair məlumat**

**(18 mart 2024)**

Nəzarət tədbirləri çərçivəsində Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan ŞTQ, Xocahəsən yolu, ev 57 ünvanında fəaliyyət göstərən “Fərmanoğlu” topdan satış ticarət obyektində Agentlik əməkdaşları tərəfindən plandankənar yoxlama keçirilib. Yoxlama zamanı anbar sahədə üzərində Azərbaycan dilində etiket məlumatları qeyd edilməyən, həmçinin minimum keyfiyyət və təhlükəsizlik sənədləri mövcud olmayan “Натуральный Мед” əmtəə nişanlı bal məhsulunun satışının həyata keçirildiyi aşkarlanıb. Eyni zamanda məhsulun etiket məlumatlarında istehsalçı ilə bağlı məlumatların uyğunluq təşkil etmədiyi müəyyən olunub. Sözügedən məhsullar dövriyyədən çıxarılıb və satışının qarşısı alınıb. Müayinələrin aparılması üçün məhsullardan nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarına təqdim olunub. Sınaq nəticələrinə əsasən nümunələrdə uyğunsuzluqlar aşkar edilib.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq müəssisə rəhbərliyi barəsində inzibati protokol tərtib edilib.